# HÜQUQUN ÜMUMİ PRİNSİPLƏRİ VƏ BEYNƏLXALQ HÜQUQUN ÜMUMİ PRİNSİPLƏRİNİN BEYNƏLXALQ EKOLOJİ TƏHLÜKƏSİZLİYİN PRİNSİPLƏRİNİN FORMALAŞMASINA TƏSİRİ

**A.A.MƏHƏRRƏMOV**
*Bakı Dövlət Universiteti*

Bütövlükdə hüquq sisteminin və ya onun ayrı-ayrı hissələrinin formalaşması və inkişafında müvafiq rəhbər başlanğıclar mərkəzi yerlərdən birini tutur. Ümumilikdə götürsək, prinsip (latınca «prinsipium» sözündən götürülmüş, mənası başlanğıc, əsas deməkdir) fəaliyyətin başlıca müddəası, rəhbər ideyası, davranışın əsas qaydası kimi izah edilir [27, 409]. Qədimdə prinsip «hər şeyin mühüm hissəsi» (*princepium est porissima pars cuyuque rei*) kimi nəzərdən keçirilirdi [25, 75]. Fəlsəfi mənada isə prinsip insan fəaliyyətinin müxtəlif sahələrində rəhbər tutulmalı olan bəzi faktların və ya biliyin məcmusunun əsasını təşkil edən müddəalar kimi başa düşülür. Hazırda prinsip terminindən müxtəlif fəaliyyət sahələrində istifadə edilsə də, onun ilkin, başlanğıc, əsas kimi mənası saxlanılır [32, 365].

İlk növbədə, ətraf mühitin beynəlxalq-hüquqi mühafizəsi sahəsində beynəlxalq hüququn əsas prinsiplərinin rolu qeyd edilməlidir. Beynəlxalq hüququn əsas prinsipləri elə bir sistem yaradır ki, bu beynəlxalq hüququn ümumi strukturunda mərkəzi yer tutur. Tarixən formalaşan və inkişaf edən beynəlxalq hüququn prinsipləri mühüm funksiyalar yerinə yetirir. Belə ki, beynəlxalq hüquq qaydasının əsasını təşkil edən və beynəlxalq qanunçuluğun əsas meyarı sayılan beynəlxalq hüququn prinsipləri beynəlxalq hüququn subyektləri arasında meydana çıxan qarşılıqlı münasibətlərin əsasını müəyyənləşdirir. Digər tərəfdən, beynəlxalq hüququn əsas başlanğıcları, universal və ümumqəbulolunmuş normaları qismində çıxış edən mövcud prinsiplər bütün beynəlxalq normayaradıcılıq prosesinin əsasını təşkil edir.

Beynəlxalq hüququn ümumtanınmış prinsiplərinin təhlilinə keçməzdən öncə onu da qeyd etmək lazımdır ki, sözügedən prinsiplərdən danışarkən, əksər hallarda BMT Beynəlxalq Məhkəməsinin Statutunun 38-ci maddəsinin «c» bəndinə istinad olunsa da, müvafiq normadakı rəhbər başlanğıclar məhz sivilizasiyalı millətlər tərəfindən tanınan hüququn ümumi prinsipləri mənasını verir. Lakin sivilizasiyalı millətlər tərəfindən tanınmış hüququn ümumi prinsipləri milli-hüquqi sistemlərin ümumdemokratik prinsipləri mənasında işlədilir. Ona görə hüququn ümumi prinsipləri heç də beynəlxalq hüququn ümumtanınmış prinsipləri ilə üst-üstə düşmür. Belə ki, birinci müddəa daha çox beynəlxalq və milli hüququn, həmçinin hüquqtətbiqetmə sisteminin yaradılmasına kömək edir [18, 11].

Bütün bunlarla yanaşı, ayrı-ayrı müəlliflər tərəfindən beynəlxalq hüququn prinsipləri barədə müxtəlif fikirlər qeyd edilir. Məsələn, V.İ.Kuznetsovun fikrincə, beynəlxalq hüququn əsas, ümumtanınmış prinsipləri ictimai təcrübənin nəticəsi kimi yaranan və bütün subyektlər üçün

ümummәcburi olan beynәlxalq normalardır [21, 30-31]. İ.İ.Lukaşuk hesab edir ki, prinsiplәr әsasında sülh vә әmәkdaşlığın dayandığı mühüm amillәrin mövcud olduğu ümumbәşәri dәyәrlәri ifadә vә mühafizә edir. Bundan әlavә, onun fikrincә, beynәlxalq hüququn bütün әsas prinsiplәri dövlәtlәrin milli hüququ üçün ümumi olmalıdır. Müәllif, hәmçinin, bütün subyektlәr üçün mәcburi olan vә beynәlxalq ümumi hüququn imperativ normaları qismindә çıxış edәn ümumtanınmış norma-prinsiplәri, beynәlxalq ümumi hüququn universal normalarını fәrqlәndirir ki, burada da aşağıdakıların mövcudluğunu xüsusilә vurğulayır: beynәlxalq hüququn әsas mәqsәd vә prinsiplәri; beynәlxalq cәmiyyәtin tarixәn nail olunmuş hüquqi standartlarını tәsbit edәn prinsip vә normalar; humanizm sәviyyәsinә tarixәn nail olmanı tәsbit edәn prinsip vә normalar [18, 136-144].

Bәzi müәlliflәr hesab edir ki, beynәlxalq hüququn ümumtanınmış prinsip vә normaları adı altında beynәlxalq hüququn müqavilә normaları başa düşülür [7, 22]. İ.A.Muxin beynәlxalq hüququn әsas prinsiplәri beynәlxalq hüququn xarakterik xüsusiyyәtlәri vә onun әsas mәzmununu әks etdirәn, hәmçinin yüksәk hüquqi qüvvәyә malik olan ümumi normaların mövcudluğunu göstәrir [24, 15]. N.F.Kuznetsovun fikrincә isә müvafiq prinsip vә normalara yalnız sivilizasiyalı dövlәtlәrin әksәriyyәti tәrәfindәn tanınan vә beynәlxalq adәtlәrdә öz tәsbitini tapan davranış qaydaları aid edilir [12, 15-18].

L.X.Minqazov qeyd edir ki, beynәlxalq hüququn prinsiplәri dövlәtlәrin vә hüququn digәr subyektlәrinin davranışının istiqamәtlәnmәsi vә hüquqi qiymәtlәndirilmәsindә başlıca rola malikdir [23, 130]. Bәzi müәlliflәr isә xüsusilә vurğulayırlar ki, aparıcı norma qismindә çıxış edәn әsas prinsiplәr mövcud hüquqi sistemin keyfiyyәtli xüsusiyyәti vә rәhbәr ideyalarını ifadә edir [4, 192]. Alman hüquqşünas-alimlәri isә prinsiplәri hüquq vә hüquq münasibәtlәrinin qiymәtlәndirilmәsinin «ümumi ölçüsü» hesab edirlәr [35, 996]. Göstәrilәnlәrlә yanaşı qeyd edilir ki, prinsiplәr beynәlxalq sazişlәrin işlәnib hazırlanmasının ilkin mәrhәlәlәrindә beynәlxalq hüququn subyektlәrinә müәyyәn tәsir göstәrmәk qabiliyyәtinә malikdir [36, 683].

A.S.Timoşenko isә hesab edir ki, beynәlxalq sәnәdlәrdә tәsbit olunan vә «prinsiplәr» adlanan müddәalar bir tәrәfdәn beynәlxalq hüququn müasir vәziyyәtini göstәrir, digәr tәrәfdәn beynәlxalq hüququn kifayәt qәdәr yeni sahәsinin – beynәlxalq ekologiya hüququnun formalaşmasına özünün müәyyәn töhfәsini bәxş edir. Bu isә onun müәyyәn normayaradıcılıq әhәmiyyәtinә malik olması fikrini tamamilә tәsdiqlәyir [29, 32].

Beynәlxalq hüquq nәzәriyyәsindә isә әsas prinsiplәr dedikdә, beynәlxalq hüququn әsas mәzmununu, onun xarakterik xüsusiyyәtlәrini ifadә edәn vә yüksәk imperativ hüquqi qüvvәyә malik olan tarixәn şәrtlәndirilmiş başlıca ümumtanınmış normalar başa düşülür [13, 5].

Ümumtanınmış prinsip vә normaların müәyyәnlәşdirilmәsi zamanı Rusiya Federasiyasının Konstitusiyasının Kommentariyasında hәmin terminә beynәlxalq hüququn әsas prinsiplәrini tәsbit edәn normalar, beynәlxalq ümumi adәt hüququnun normaları vә sivilizasiyalı xalqlar tәrәfindәn tanınan hüququn ümumi prinsiplәri aid edilir [8, 117].

Bütün bu deyilәnlәri nәzәrә alaraq, beynәlxalq hüququn ümumtanınmış prinsiplәrini bir sıra sәciyyәvi xüsusiyyәtlәrlә xarakterizә etmәk olar:

**1) beynәlxalq hüququn ümumtanınmış prinsiplәrinin beynәlxalq**

**hüququn formalaşdırılmasında və inkişafında əsas baza rolunu oynamaqla, mühüm əhəmiyyətə malik olması.** Belə ki, beynəlxalq hüququn əsas prinsipləri jus cogens – imperativ xarakterli norma olmaq etibarilə, digər beynəlxalq-hüquqi müddəaların yaradılması üçün hüquqi bazanı təşkil edir. Yəni, beynəlxalq hüququn prinsipləri bir tərəfdən beynəlxalq hüququn subyektləri arasındakı qarşılıqlı münasibətlərin əsasını müəyyənləşdirir, digər tərəfdən isə dövlətlərin əsas hüquq və vəzifələrini özündə əks etdirir. Onlar məcburedici xarakterə malik olmaqla, universal əhəmiyyət kəsb edir. Bu isə son nəticədə beynəlxalq hüququn ümumtanınmış rəhbər başlanğıclarının beynəlxalq birliyə, istisnasız olaraq bütün dövlətlərə şamil olunması və bütün bunlara beynəlxalq hüququn subyektlərinin ciddi riayət etməsinə müncər edilir. Bütün bunlarla yanaşı, beynəlxalq hüququn prinsipləri beynəlxalq hüquqda boşluğun aradan qaldırılmasında mühüm rol oynayır [15, 18].

**2) beynəlxalq hüququn ümumtanınmış prinsiplərinin qarşılıqlı əlaqədə olması.** Belə ki, onlar yalnız qarşılıqlı əlaqədə olduqları zaman müəyyən funksiyaları həyata keçirə bilərlər. Məhz bu baxımdan beynəlxalq hüququn istənilən ümumtanınmış prinsipi digər prinsiplərlə qarşılıqlı əlaqədə göstərilməli və nəzərdən keçirilməlidir. Hətta İ.İ.Lukaşuk da göstərmişdir ki, məhz qarşılıqlı əlaqədə onlar öz funksiyalarını yerinə yetirmək qabiliyyətinə malikdirlər [17, 123]. Eyni zamanda, 1970-ci il tarixli BMT Nizamnaməsinə əsasən dövlətlər arasında dostluq və əməkdaşlıq münasibətlərinə dair beynəlxalq hüququn prinsipləri haqqında Bəyannamədə birbaşa olaraq göstərilmişdir ki, beynəlxalq hüququn prinsiplərinin tövsifi və tətbiqi zamanı onlar qarşılıqlı əlaqədə olur, həmçinin hər bir prinsipin başqa prinsiplər kontekstində nəzərdən keçirilməsi zəruridir.

Göstərilənlərlə yanaşı, onu da qeyd etmək lazımdır ki, qarşılıqlı əlaqə məsələsi həm də beynəlxalq hüququn əsas prinsipləri ilə konkret normalar arasındakı üzvi vəhdəti özündə birləşdirən münasibətlərə də aid edilməlidir. Belə ki, beynəlxalq hüququn əsas prinsipləri ayrı-ayrı beynəlxalq-hüquqi normalarda möhkəmləndirilmədən, onların ümumiləşdirilmiş məzmunu kimi özünü biruzə vermədən mövcud ola bilməz. Həmçinin, konkret prinsip bir normada deyil, müxtəlif normaların məcmusunda, onların çoxluğunda ifadə olunur.

**3) beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərinin beynəlxalq hüququn rəhbər başlanğıcları, universal və ümumqəbulolunmuş normaları, mühüm və ümumi müddəları qismində çıxış etməsi.** Bir məsələni də xüsusilə qeyd etmək lazımdır ki, beynəlxalq hüququn əsas məzmunu və xarakterik cəhətlərini ifadə edən, o cümlədən yüksək hüquqi qüvvəyə malik ümumi normaların əsas prinsiplər kimi fərqləndirilməsi beynəlxalq hüququn xarakterik xüsusiyyətlərindəndir. Bundan əlavə, göstərilən müddəa ilə bağlı elmi-nəzəri ədəbiyyatlarda və aparılan araşdırmalarda da müxtəlif fikirlər səslənməkdədir. Məsələn, Q.İ.Tunkin beynəlxalq hüququn prinsiplərini daha ümumi xarakterli beynəlxalq hüquq normaları adlandırır [30, 157]. A.N.Talalayev isə beynəlxalq hüququn prinsiplərini beynəlxalq hüququn ən ümumi, mühüm və ümumqəbulolmuş norması kimi izah edir [28, 513]. L.P.Anufriyeva hesab edir ki, əsas normalar kimi beynəlxalq hüququn əsas, ümumtanınmış prinsipləri bütün hüquq sistemləri üçün rəhbər ideyalardır [2, 73].

Beynəlxalq hüququn ümumtanınmış prinsiplərinin əsas başlanğıc

rolunu oynamasına gəldikdə isə onu göstərmək lazımdır ki, müvafiq rəhbər başlanğıclar beynəlxalq hüquq qaydasının əsasında dayanmaqla, beynəlxalq qanunçuluğun mühüm meyarı qismində çıxış edir. Digər tərəfdən isə onlar beynəlxalq normayaradıcılıq prosesinin bütün mərhələlərinin əsasını təşkil edir. Hətta bununla bağlı ədəbiyyatda qeyd olunur ki, beynəlxalq hüququn əsas prinsipləri cus cogens xarakterli olmaqla, başqa hüquqi qaydaların yaradılması üçün hüquqi bazanı təşkil edir [1, 217-218]. Başqa sözlə desək, beynəlxalq hüququn prinsipləri universal xarakterli normalardır, onlar heç bir istisna olmadan bütün dövlətlərarası münasibətlərə şamil edilir, beynəlxalq hüquq qaydasının əsasını təşkil edir və dövlətlərarası münasibətlərin inkişafı üçün mühüm siyasi-hüquqi əsas sayılır [13, 5-10].

Onu da qeyd etmək lazımdır ki, əsas prinsiplərin təsir sferası təkcə subyektlərə görə deyil, həm də onların təsirinə məruz qalan beynəlxalq münasibətlər üzrə universallıq təşkil edir.

Beynəlxalq hüququn ümumtanınmış norma və prinsiplərinin dövlətdaxili hüquqda tətbiqi problemləri, ilk növbədə, beynəlxalq hüquq normalarının hüquqtətbiqetmə prosesində hüquqmüəyyənedici xüsusiyyətini araşdırmağı tələb edir. Belə ki, beynəlxalq hüququn ümumtanınmış norma və prinsiplərinin dövlətdaxili hüquqda beynəlxalq müqavilə normalarından fərqli tətbiq olunma prosesi belə normaların dövlətdaxili konstitusion normalara fərqli qaydada gətirilməsi zərurəti ilə əlaqələndirmək olar. Xüsusən də beynəlxalq hüququn əsas norma və prinsiplərinin hüquqi qüvvəsindən danışarkən onların nəinki bu və ya digər dövlətdaxili hüququn, bütövlükdə hüquq sisteminin əsasını təşkil etməsi xüsusilə vurğulanmalıdır. Onu da qeyd etmək lazımdır ki, beynəlxalq hüququn ümumtanınmış norma və prinsipləri hər hansı bir qanunvericilik tədbirindən asılı olmayaraq, dövlətdaxili hüquqda birbaşa tətbiq olunma xüsusiyyətinə malikdir. Bu mənada beynəlxalq hüququn ümumtanınmış norma və prinsipləri digər sahələrdə olduğu kimi ətraf mühit sahəsində də birbaşa təsir qüvvəsinə malik olma xüsusiyyətini özündə ifadə edir. Məsələn, Azərbaycan Respublikası (AR) Konstitusiyasının 10-cu maddəsində göstərilir ki, AR başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur. Lakin bir məsələni də xüsusilə vurğulamaq lazımdır ki, müvafiq normalar bütövlükdə dövlətdaxili hüquq sisteminin əsasını təşkil etdiyi halda, beynəlxalq müqavilə normalarına münasibətdə bunu söyləmək qeyri-mümkündür. Belə ki, beynəlxalq müqavilə bir qayda olaraq sahəvi hüquqi sistem üçün mühüm əhəmiyyət kəsb etdiyi halda, ümumtanınmış prinsip və normalar beynəlxalq hüquqa və bütövlükdə dövlətdaxili hüquqi sistemə təsir qüvvəsinə malik olur.

Beləliklə, müvafiq prinsiplər dövlətin özünə münasibətdə olduğu kimi onun bütün orqanları üçün də vəzifə və öhdəliklər yaratdığından, onların dövlətdaxili normativ-hüquqi aktla xüsusi inkorporasiyasına zərurət yoxdur. Çünki beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarının hamılıqla tanınması xüsusiyyəti onların birbaşa tətbiqini şərtləndirir. Müvafiq prinsip və normaların dövlətdaxili hüquqi implementasiyası (inkorporasiya, göndərmə, adaptasiya, transformasiya və s.) onların «sanksiyalaşdırılması» üçün deyil, hüquq tətbiq edən orqan üçün aparılan hüquqtətbiqetmə prosesinin hüquqi ardıcıllığı baxımından zəruridir. Şübhəsiz ki, dövlətdaxili hüquqla ziddiyyət yarandıqda

beynəlxalq hüququn ümumtanınmış prinsip və normaları üstünlüк təşкil edir. Beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarının üstünlüyünü beynəlxalq birliк və beynəlxalq hüquq qaydasının mövcudluğu şərtləndirir. Dövlətdaxili hüquq üçün beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarının sistemi insanın əsas hüquq və azadlıqlarının müdafiəsi prinsipi кonteкstində realizə olunmalıdır [5, 9-10]. Beynəlxalq hüququn ümumtanınmış prinsip və normaları məzmun baxımdan jus cogens xaraкter кəsb etməкlə, bütövlüкdə insan hüquqlarının müdafiəsi sferasında qanunvericiliyin əsası sayılmaqla birbaşa tətbiq edilmə xüsusiyyətinə maliкdir. Hətta AR Konstitusiyasının 12-ci maddəsinə əsasən dövlətin ali məqsədi qismində insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi qismində çıxış edir. Onu da qeyd etməк lazımdır кi, müvafiq rəhbər başlanğıclar və beynəlxalq hüququn normaları beynəlxalq münasibətlərin sabit və proqnozlaşdırılması mümкün olan inкişafına xidmət edir.

Beynəlxalq hüququn əsas prinsiplərinə beynəlxalq müqavilə normalarından fərqli münasibət əкsər dövlətlərin кonstitusiyalarında da əкs olunmuşdur. Məsələn, İrlandiya Konstitusiyasının 29-cu maddəsinin 3-cü hissəsinə müvafiq olaraq İrlandiya digər dövlətlərlə münasibətlərində beynəlxalq hüququn ümumtanınmış normalarını əsas davranış norması кimi qəbul edir [26, 39].

İtaliya Konstitusiyasının 10-cu maddəsində isə qeyd edilir кi, İtaliyada hüquq qaydası beynəlxalq hüququn ümumtanınmış normaları ilə müəyyənləşdirilir [9, 181]. Almaniyanın Əsas Qanununun 25-ci maddəsinə görə, beynəlxalq hüququn ümumi normaları federasiya hüququnun tərкib hissəsidir, federasiya ərazisində yaşayan şəxslər üçün hüquq və vəzifələr yaradaraq dövlətin qanunlarına münasibətdə üstün hüquqi qüvvəyə maliкdir. Avstriya Konstitusiyasının 9-cu maddəsində isə beynəlxalq hüququn ümumtanınmış normaları federasiya hüququnun tərкib hissəsi кimi qiymətləndirilir. 1975-ci il Yunanıstan Konstitusiyasının 28-ci maddəsinin 1-ci hissəsinə əsasən beynəlxalq hüququn ümumtanınmış normaları, habelə ratifiкasiya olunduqdan və qüvvəyə mindiкdən sonra beynəlxalq müqavilələr Yunanıstan daxili hüququnun tərкib hissəsidir [34, 225]. Rusiya Federasiyası Konstitusiyasının 15-ci maddəsinin 4-cü hissəsində qeyd edilir кi, beynəlxalq hüququn ümumtanınmış prinsip və normaları və Rusiya Federasiyasının beynəlxalq müqavilələri onun hüquq sisteminin tərкib hissəsi sayılır. Əgər Rusiya Federasiyasının beynəlxalq müqavilələrində qanunlardan fərqli olaraq digər qaydalar müəyyən edilərsə, onda beynəlxalq müqavilənin qaydaları tətbiq edilir [10, 9].

Mozambiк Konstitusiyasının 23-cü, Anqola Kostitusiyasının 14-cü maddəsində Afriкa Birliyi Təşкilatı (hal-hazırda bu təşкilat Afriкa İttifaqı adlanır) Xartiyasının rəhbər başlanğıcları, həmçinin beynəlxalq hüququn bir sıra ümumtanınmış prinsipləri (ərazi bütövlüyü və ərazilərin toxunulmazlığı, sərhədlərin pozulmazlığı; suverenliк; bərabərliк; əməкdaşlıq; daxili işlərə qarışmamaq; qarşılıqlı mənfəət; ümumi və tam tərкsilah; Hind oкeanının nüvəsiz və sülh zonasına çevrilməsi) göstərilmişdir.

Beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə fərqli münasibət həm də bir sıra beynəlxalq sənədlərdə də özünü aydın şəкildə biruzə verir. Məsələn, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQFET) üzv-dövlətləri arasında münasibətləri tənzim edən Prinsiplər Bəyannaməsində xalqların hüquq bərabərliyi və özünü müəy-

yən etmə, öhdəliklərin vicdanlı icrası, dövlət sərhədlərinin pozulmazlığı prinsiplərinin olmaması, lakin bütün bunların əvəzində yeni rəhbər başlanğıcın – tərksilah və münaqişələr üzərində nəzarət prinsipinin mövcudluğu diqqəti daha çox cəlb edir [11, 37-41].

Beynəlxalq hüquq normalarının əxlaq normaları ilə qarşılıqlı əlaqəsi də aparılan tədqiqatlarda əsas yerlərdən birini tutur. Hətta bir sıra müəlliflər qeyd edirlər ki, beynəlxalq əxlaqın əsas müddəaları beynəlxalq hüququn ümumtanınmış prinsiplərində tam şəkildə öz əksini tapmışdır ki, bu da son nəticədə sonuncuların daha yüksək əxlaqi qüvvə əldə etməsinə gətirib çıxarır. Bundan əlavə, göstərilir ki, beynəlxalq hüququn əxlaqi və hüquqi əsası sayılan əsas, ümumtanınmış prinsiplərin vahid kompleksi beynəlxalq-hüquqi münasibətlərin tənzimlənməsinin bütün prosesini istiqamətləndirir və korrektə edir [6, 123].

Aparılan elmi araşdırmalarda prinsiplərlə müxtəlif hüquqi kateqoriiyaların qarşılıqlı əlaqəsi məsələsi də geniş müzakirə obyektinə çevrilmişdir. Məsələn, bir qrup müəlliflərin fikrincə, hüquqi ideyalar hüquq düşüncəsinə aiddir, hüququn qüvvədə olan prinsipləri isə onun hüquqi materiyasını yaradır [33, 24]. Bir sıra hallarda isə göstərilir ki, prinsiplər hüququn bütün strukturunu – hüquq düşüncəsini, normaları, hüquq münasibətləri, həmçinin hüquqtətbiqetmə praktikasını əmələ gətirir [20, 67]. Bundan əlavə, bəzi mənbələrdə prinsip hüquq düşüncəsinin kateqoriyası kimi nəzərdən keçirilir [16, 23].

Prinsiplərin funksiyalarına gəldikdə isə bəzi müəlliflər bu barədə xüsusilə vurğulayırlar ki, prinsiplər iki əsas xüsusiyyətə malikdir. Onların birinci əlaməti ümumiliyidir ki, bu da müvafiq rəhbər başlanğıcların bu və ya digər hüquq sahəsinin konkret norma və institutlarının deyil, bütövlükdə həmin sahənin əmələ gəlməsində əsas və müvafiq müddəa qismində çıxış edir. İkinci xüsusiyyət isə onların iyerarxiyası məsələsidir [19, 12].

Beynəlxalq hüququn ümumtanınmış prinsipləri, əsas etibarilə, 3 mühüm beynəlxalq sənəddə təsbit olunmuşdur. Belə ki, beynəlxalq hüququn ümumtanınmış prinsipləri 1945-ci il BMT Nizamnaməsində təsbit olunduqdan sonra BMT Baş Məclisi tərəfindən 1970-ci ildə qəbul edilmiş BMT Nizamnaməsinə əsasən dövlətlər arasında dostluq münasibətləri və əməkdaşlığa dair beynəlxalq hüququn prinsipləri haqqında Bəyannamədə aşağıdakı rəhbər başlanğıclar öz əksini tapmışdır: güc tətbiq etməmək və güc tətbiq etməklə hədələməmək prinsipi; beynəlxalq mübahisələrin dinc yolla həll edilməsi prinsipi; xalqların hüquq bərabərliyi və özünü müəyyən etmə prinsipi; dövlətlərin daxili işlərinə qarışmamaq prinsipi; dövlətlərarası əməkdaşlıq prinsipi; dövlətlərin suveren bərabərliyi prinsipi; beynəlxalq-hüquqi öhdəliklərin vicdanlı icrası prinsipi.

ATƏM-in 1975-ci ildə qəbul edilmiş Helsinki Yekun Aktında yuxarıda adları çəkilən rəhbər başlanğıclara daha üç prinsip əlavə edilmişdir. Onlara sərhədlərin toxunulmazlığı prinsipi, dövlətlərin ərazi bütövlüyü prinsipi, insan hüquqlarına və əsas azadlıqlarına hörmət prinsipi aiddir.

Beləliklə, beynəlxalq ekologiya hüququnun və onun ayrı-ayrı institutlarının prinsiplərini beynəlxalq hüquqla əlaqəsinin dərəcəsi və xarakterindən asılı olaraq aşağıdakı qaydada təsnifləşdirmək olar:

- beynəlxalq hüququn əsas, ümumtanınmış prinsipləri;
- beynəlxalq ekologiya hüququnun rəhbər başlanğıcları;

- beynəlxalq hüququn кomplекs institutu qismində çıxış edən екoloji təhlüкəsizliyin prinsipləri.

Bəzi araşdırmalarda isə müvafiq məsələyə başqa кontекstdən yanaşılır. Belə кi, qeyd edilən prinsiplərin təsnifatı aşağıdaкı şəкildə həyata кeçirilir: beynəlxalq hüququn ümumi prinsipləri; beynəlxalq hüququn təbiəti mühafizə xaraкterli prinsipləri; ətraf mühitin beynəlxalq-hüquqi mühafizəsinin sahəvi prinsipləri [3, 40].

## ƏDƏBİYYAT


1. Алексидзе Л.А. Некоторые вопросы теории международного права: Императивные нормы (jus cogens). Тбилисский Государственный Университет, 1982, 406 с.
2. Ануфриева Л.П. Соотношение международного публичного и международного частного права: правовые категории. М.: Спарк, 2002, 415 с.
3. Балашенко С.А., Макарова Т.И. Международно-правовая охрана окружающей среды и права человека. Минск: 1999, 320 с.
4. Бобров Р.Л. Основные проблемы теории международного права. М.: Международ. отношения, 1968, 240 с.
5. Дарда А.В. Проблемы толкования национальными судами общепризнанных принципов международного права: Автореф. дисс. на соиск. учен. степ. канд. юрид. наук. М.: 2003, 24 с.
6. Дмитриева Г.К. Мораль и международное право. М.: Наука, 1991, 290 с.
7. Здравомыслов Б.В. Уголовное право Российской Федерации. Общая часть. М.: Юрист, 1996, 546 с.
8. Комментарий к Конституции Российской Федерации / Под ред. Б.Н.Топорнина. М.: Юрид. лит., 1994, 380 с.
9. Конституции зарубежных государств. Учебное пособие. 4-е изд., перераб. и доп./ Сост. В.В.Маклаков. М.: 2003, 640 с.
10. Конституция Российской Федерации. Официальное издание. М.: Юрид. лит., 2000, 380 с.
11. Колосов Ю.М., Кривчикова Э.С. Действующее международное право (избранные документы). М.: Изд-во Московской Ассоциации международного права, 2002, 980 с.
12. Кузнецова Н.Ф. Новое уголовное право России. Общая часть. М.: ТЕИС,1995, 540 с.
13. Курс международного права. В 7-и томах, Т. 2. М.: 1989, 240 с.
14. Лихачев В.И. Установление пробелов в современном международном праве. Казань: 1989, 135 с.
15. Лисовский В.И. Международное право. М.: 1970, 456 с.
16. Лукашева Е.А. Принципы социалистического права // Сов. гос. и право, 1970, № 6, с. 20-26.
17. Лукашук И.И. Международное право. Общая часть. М.: Бек, 1996, 371 с.
18. Лукашук И.И. Нормы международного права в правовой системе России. М.: Спарк, 1997, 346 с.
19. Манохин В.М. Советское административное право. Часть общая. Саратов: 1968, 320 с.
20. Малеин Н.С. Правовые принципы, нормы и судебная практика // Государство и право, 1996, № 6, с. 61-69.
21. Международное право. Учебник / Отв. ред. Ю.М. Колосов, В.И. Кузнецов М.: 1998, 605 с.
22. Международное публичное право. Сборник документов. Т. 1. М.: 1996, 435 с.
23. Мингазов Л.Х. Правомерное поведение государств – предпосылка эффективности международно-правовых норм / Рос. ежегодник международ. права. 1998-1999 гг. СПб.: Социально-коммерческая фирма «Россия-Нева», 1999, с. 124-136.
24. Мухин И.А. Правовое регулирование охраны окружающей среды в Российской Федерации (международно-правовые аспекты): Автореф. дисс. на соиск. учен. степ. канд. юрид. наук. М.: 2006, 26 с.
25. Общая теория государства и права. Академический курс в 3-х томах. Изд. 2-е, перераб. и доп./ Отв. ред. М.Н.Марченко. Т. 2. М.: Спарк, 2001, 528 с.

26. Осминин Б.И. Принятие и реализация государствами международных договорных обязательств. М.: Юрид. литература, 2006, 408 с.
27. Словарь иностранных слов. 18-е изд., стер. М.: 1989, 624 с.
28. Талалаев А.Н. Об основных принципах международного права, СЕМП, 1959. М.: Юрид. литература, 1959, 320 с.
29. Тимошенко А.С. Международное сотрудничество по охране окружающей среды в системе ООН: организационно-правовые вопросы. М.: Наука, 1981, 340 с.
30. Тункин Г.И. Вопросы теории международного права. М.: МГУ, 1982, 511 с.
31. Ушаков Н.А. Проблемы теории международного права. М.: Юрид. литература, 1988, 191 с.
32. Философская энциклопедия / Гл. ред. Ф.В.Константинов. Т. 4. М.: Наука, 1967, 592 с.
33. Явич Л.С. Право в структуре социалистической надстройки / Сов. гос. и право,1976, № 7, с. 23-29.
34. Cassese A. International Law. Second Edition. New-York, 2005, 680 p.
35. Westphal S. Das Kooperationsprinzip als Rechtsprinzip. Die öff. Verwaltung. Stuttgart, 2000, 480 p.
36. Williamson R. Building the International Environmental Regime. Miami, 1990.

## ВЛИЯНИЕ ОБЩИХ ПРИНЦИПОВ ПРАВА И МЕЖДУНАРОДНОГО ПРАВА НА ФОРМИРОВАНИЕ ПРИНЦИПОВ МЕЖДУНАРОДНОЙ ЭКОЛОГИЧЕСКОЙ БЕЗОПАСНОСТИ

**А.А.МАГЕРРАМОВ**

**РЕЗЮМЕ**

В работе отмечается, что основополагающие начала занимают одно из центральных мест в формировании и развитии правовой системы и ее составных частей. Известно, что принцип представляет собой как главное положение, основополагающая идея деятельности, основной порядок отношении. В древнем принцип рассматривался как «важная часть всего» (principium est porissima pars cuyuque rei). В философическом же смысле принцип понимается как положение, составляющее основу некоторых фактов или совокупности знаний, которые должны приниматься в качестве основополагающих в различных сферах человеческой деятельности. В настоящее время, несмотря, что термин принцип используется в различных сферах деятельности, его значение как «первоначальный», «основополагающий», «основной» остается неизменным. В работе подвергаются анализу общие принципы международного права, закрепленные в Уставе ООН, в Декларации 1970 г. и в Итоговом Акте Хельсинки 1975 г.

## THE IMPACT OF LAW PUBLIC PRINCIPLES AND PUBLIC PRINCIPLES OF INTERNATIONAL LAW ON THE FORMATION OF THE PRINCIPLES OF INTERNATIONAL ECOLOGICAL SAFETY

**A.A.MAGERRAMOV**

**SUMMARY**

The same principles have one of the central places in formation and development of law system and its separate parts. Generally, principle is explained as the main idea of activity, the basic thesis of conduct. Principle was considered to be an important part of everthing (principium est porissima pars cuyuque rei) in ancient times. Philosophicaly, principle is understood as a thesis organizing the basic of some facts and all the knowledge which must be carried out in the different spheres of human activity. Although, concept of principle is used in the different activity spheres, it still preserves its initial meaning.

The public principles of the international law are secured in UN Charter, Declaration 1970 and The Final Act of Helsinki 1975.